UOT 94(479.24); UOT 930

BALAMİRZƏ MƏMMƏDLİ
Bakı Dövlət Universitetinin doktorantı
balamirzamammadli@gmail.com

AZƏRBAYCAN RESPUBLİKASI–BÖYÜK BRİTANİYA MÜNASİBƏTLƏRİ VƏTƏN TARİXŞÜNASLIĞINDA

DOI: https://doi.org/10.36719/2708-065X/107/295-306

Azərbaycan Respublikasının Böyük Britaniya ilə münasibətlərinin Vətən tarixşünaslığı kontekstində təhlili mühüm elmi və siyasi əhəmiyyət kəsb edir. Belə ki, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı dünyadakı bir neçə böyük gücdən (great power) biri kimi müasir beynəlxalq münasibətlər sistemində əhəmiyyətli rola malikdir. Vaxtilə "dünyanın sənaye emalatxanası" adlandırılan Böyük Britaniya bu gün də güclü iqtisadiyyata sahib olan ölkə kimi ÜDM həcminə görə (2024-cü ildə 3,5 trilyon dollar olmuşdur – B.M.) dünyada 6-cı, Avropada 2-ci (Almaniyadan sonra) sıradadır. NATO və Avropa Şurası kimi nüfuzlu təşkilatların, habelə BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan və "Böyük yeddilərə" (G7) daxil olan Böyük Britaniya həm də qüdrətli hərbi-siyasi potensiala malikdir. Bu dövlət dünyada nüvə silahına malik 9 ölkədən biridir və illik hərbi xərbi xərclərin həcminə görə Avropada birinci yerdədir. Belə bir dövlətlə uğurlu qarşılıqlı münasibətlərin qurulması və inkişaf etdirilməsi Azərbaycana öz mövqeyini beynəlxalq aləmdə daha da möhkəmləndirmək baxımından heç şübhəsiz həyati dərəcədə vacibdir. Ölkəmizin Böyük Britaniya ilə dostluq əlaqələrinin siyasi və iqtisadi əhəmiyyətini şərtləndirən amillər sırasında Azərbaycanın dünya ictimaiyyətinə lazımi şəkildə tanıdılaraq onun haqqında müsbət rəyin formalaşdırılması, ölkəmizin nüfuzlu beynəlxalq təşkilatlara, Avropanın qabaqcıl strukturlarına, beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiyası üçün əlverişli imkanların açılması, Cənubi Qafqaz və Xəzər regionunda sülh və təhlükəsizliyin təmin olunması, ölkəmizdə demokratiya və parlamentarizm ənənələrinin inkişafı, Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına uğurlu nəqlində nəhəng maliyyə imkanlarına, inkişaf etmiş texnologiyaya malik Qərb dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığın zəruriliyi kimi amilləri sadalamaq olar.

Məqalədə Azərbaycan Respublikası-Böyük Britaniya probleminin sırf Vətən tarixşünaslığı kontekstində ilk dəfə olaraq tədqiqi elmi yenilik və aktuallıq kəsb etməklə yanaşı, iki ölkə arasındakı münasibətlərin keçdiyi tarixi inkişaf dinamikasını daha dəqiq izləmək, onun hazırkı və gələcək perspektivlərini müəyyənləşdirmək nöqteyi-nəzərindən də son dərəcə əhəmiyyətlidir.

Açar sözlər: Azərbaycan Respublikası, Böyük Britaniya, xarici siyasət, beynəlxalq münasibətlər, neft, Vətən tarixşünaslığı.

Giriş. Azərbaycanın Böyük Britaniya ilə münasibətləri zəngin tarixə malikdir. Vətən tarixşünaslığında bir sıra müəlliflər (Musa Qasımlı, Sevinc Yusifzadə, Ayaz Rzayev, Mahir İbrahimov) belə hesab edirlər ki, bu münasibətlərin təməli XIX əsrin sonları-XX əsrin əvvəllərində qoyulmuşdur [17, s.29; 32, s.6; 22, s.399; 16, s.37]. Lakin, digər qrup tədqiqatçılarımız (Yaqub Mahmudov, Əli Həsənov, Elnur Məmmədli, Ceyhun Ələkbərov, İsmayıl Musa, Zaur Adıgözəlov, Günel Musayeva) Azərbaycan-Britaniya əlaqələrinin tarixi köklərinin XVI əsrə gedib çıxması qənaətinə gəlirlər ki, bu da təsadüfi deyildir [30, s.123; 14, s.40; 18, s.13; 7; 20, s.476; 3, s.34; 31, s.29]. Belə ki, hələ 1561-ci ildə Tüdorlar sülaləsindən olan İngiltərə kraliçası I Yelizaveta şah I Təhmasibə məktub göndərərək qarşılıqlı əlaqələrin hər iki ölkə üçün faydalı olduğunu bildirmişdir. İngilislərin əsası 1555-ci ildə qoyulmuş "Moskva" ticarət kompaniyası (*Muscovy Company*) tərəfindən XVI əsrin 60-80-ci illərində Səfəvilər dövlətinə 6 dəfə ekspedisiya göndərilmişdir. Çoxsaylı ingilis səyyah və diplomatları (E.Cenkinson, A.Eduards, C.Fletçer, Şerli qardaşları və s.) Azərbaycana gəlmiş, 1621-ci ildə İngiltərə və Səfəvilər dövləti arasında "Əbədi dostluq" haqqında müqavilə imzalanmışdır. XIX əsrin birinci yarısında Azərbaycanın Britaniya xarici siyasətində tutduğu önəmli yeri Vətən tarixşünaslığındakı tədqiqatçılardan Nigar Gözəlova öz monoqrafiyasında geniş araşdırmışdır [29]. XIX əsrin ikinci yarısında isə Azərbaycanda təşəkkül tapan neft sənayesi bir çox aparıcı Qərb dövlətləri kimi Böyük Britaniyanın da diqqətini özünə cəlb et-

miş, ölkəmizə ingilis kapitalı geniş şəkildə nüfuz etmişdir. A.Rzayev yazır ki, XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakıda "Shell" (Britaniyanın əsası 1907-ci ildə qoyulmuş nəhəng neft-qaz şirkəti – B.M.), o cümlədən sırf ingilis kapitalını təmsil edən 6 böyük şirkət fəaliyyət göstərirdi 22, s.399]. Birinci dünya müharibəsi illərində Bakı neftinə ağalıq etmək uğrunda iri dövlətlərin mübarizəsində Britaniya xüsusilə fərqlənmiş, 1918-ci ilin iyulunda general-mayor L.Denstervilin, noyabrında isə general-leytenant U.Tomsonun başçılığı altında ingilis hərbi birləşmələri Bakıya daxil olmuş və bu hərbçilər Azərbaycan ərazisini 1919-cu ilin avqustunda tərk etmişdilər [13, s.57]. Cümhuriyyətin 23 aylıq mövcudluğu dövründə ölkəmizdə ingilis konsulluğu fəaliyyət göstərmişdi. 1920-ci ilin 11 yanvarında Versalda Azərbaycanın müstəqilliyinin de-fakto tanınması təklifi ilə məhz Müttəfiqlərin britaniyalı nümayəndəsi C.Kerzon çıxış etmişdir. Sovet dönəmində Azərbaycan-Britaniya əlaqələri dayanmış, iki ölkə arasında müəyyən iqtisadi, elmi və mədəni əlaqələr yalnız SSRİ-Böyük Britaniya münasibətləri çərçivəsində mümkün olmuşdur.

Vətən tarixşünaslığında Azərbaycan Respublikası-Böyük Britaniya münasibətləri probleminin işlənilmə dərəcəsinə dair. Problem Vətən tarixşünaslığında çoxsaylı müəlliflərin (E.Məmmədli, C.Ələkbərov, M.Qasımlı, Ə.Həsənov, G.Musayeva, A.Rzayev, M.Əliyeva, Ə.Həbibbəyli, X.Hacıyeva, Z.Adıgözəlov, R.Dadaşova, İ.Musa və d.) əsərlərində tədqiqat obyekti olmuş və müxtəlif aspektlərdə araşdırılmışdır. Vətən tarixşünaslığında Azərbaycan Respublikası-Böyük Britaniya münasibətlərinin hərtərəfli və kompeks tədqiqinə dair ilk əsərlər XXI əsrin əvvəllərində meydana çıxmışdır. Elnur Məmmədlinin 2003-cü ildə nəşr olunmuş "Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər)" adlı monoqrafiyası bu baxımdan ilk tədqiqat əsəridir [18]. Monoqrafiyada 1991-ci ildə öz müstəqilliyini bərpa etməsindən 2003-cü ilə qədər olan 12 illik xronoloji çərçivədə Azərbaycan Respublikasının Böyük Britaniya ilə siyasi-diplomatik, iqtisadi və humanitar (elmi-mədəni) əlaqələri, habelə ikitərəfli münasibətlərin inkişaf perspektivləri araşdırılmışdır. Giriş, 4 fəsil və nəticədən ibarət olan tədqiqat əsərinin ilk fəslində Azərbaycan-Böyük Britaniya münasibətlərinin tarixi köklərinin şərh edildikdən sonra, II fəsildə iki ölkə arasında siyasi münasibətlərin qurulması və inkişafı, parlamentlərarası əlaqələr, habelə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə Böyük Britaniyanın münasibəti təhlil edilmiş, III fəsildə qarşılıqlı iqtisadi münasibətlər, energetika sahəsində əməkdaşlıq, o cümlədən elmi-mədəni əlaqələr araşdırılmışdır. Nəhayət, monoqrafiyanın sonuncu fəslində Azərbaycan və Birləşmiş Krallıq arasında münasibətlərin perspektivləri və strateji əməkdaşlıq məsələləri tədqiq olunmuşdur. Ərəstu Həbibbəylinin "Azərbaycan Respublikasının Böyük Britaniya ilə xarici əlaqələrinin əsas istiqamətləri" adlı namizədlik dissertasiyasının tədqiqat obyekti müasir dövrdə Azərbaycan-Böyük Britaniya münasibətləridir [11]. Məhsəti Əliyevanın "Müasir mərhələdə Azərbaycan-Britaniya münasibətləri: formalaşması, inkişafı və perspektivləri" adlı namizədlik dissertasiyasında XX əsrin sonlarında iki ölkə arasında ayrı-ayrı sferalarda əlaqələr, qarşılıqlı əməkdaşlıq münasibətləri araşdırılmışdır [27]. Struktur baxımdan giriş, 3 fəsil və nəticədən ibarət olan dissertasiyanın "Siyasi sahədə Azərbaycan-Britaniya əməkdaşlığı" adlı I fəslində müəllif Böyük Britaniyanın xarici siyasət prioritetlərində Azərbaycan Respublikasının yerini müəyyənləşdirmiş, sözügedən ölkələr arasında ilk diplomatik münasibətlərin və parlamentlərarası əlaqələri qurulması və inkişafını təhlil etmişdir. Azərbaycan-Britaniya münasibətlərinin iqtisadi aspektlərinin tədqiqinə həsr edilmiş II fəsildə neft amilinin qarşılıqlı münasibətlərdəki rolu və yeri aydınlaşdırılmış, iqtisadiyyatın digər sahələrindəki əməkdaşlıq araşdırılmışdır. Dissertasiyanın sonuncu fəsli isə elm, təhsil və mədəni sferada ikitərəfli əlaqələrin tədqiqinə həsr edilib. Müəllifin bu tədqiqatları əsasında 2013-cü ildə "Müasir mərhələdə Azərbaycan-Britaniya münasibətləri" adlı monoqrafiyası nəşr olunmuşdur [28]. Ceyhun Ələkbərovun "Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər)" adlı fəlsəfə doktoru dissertasiyasında da XX əsrin sonu-XXI əsrin əvvəllərində qarşılıqlı münasibətlər dərindən araşdırılır [7]. Giriş, 3 fəsil, 8 yarımfəsil və nəticədən ibarət olan dissertasiyanın tədqiqat obyekti Azərbaycanın Böyük Britaniya ilə siyasi, iqtisadi, mədəni və digər sferalarda əlaqələri, habelə beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli əməkdaşlıq, iki ölkə arasında münasibətlərin inkişaf perspektivləridir. I fəsildə müəllif əvvəlcə Azərbaycan-Britaniya münasibətlərinin tarixi köklərini nəzərdən keçirdikdən sonra, iki dövlət arasında ilk siyasi-diplomatik münasibətlərin yaradılması və genişlənməsini, habelə Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsinə siyasi mövqeyini araşdırır. II fəsildə iki ölkə arasında iqtisadi və mədəni sahədə əlaqələr, III fəsildə isə bütövlükdə beynəlxalq münasibətlər sistemində ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri tədqiq edilir.

Azərbaycan Respublikası və Böyük Britaniya arasında ilk siyasi-diplomatik münasibətlər Vətən tarixşünaslığında. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan özünün xarici siyasət prioritetlərini müəyyənləşdirdi və dünya dövlətləri ilə geniş əlaqələr qurmaq imkanı əldə etdi. Respublikamızın ilk siyasi-diplomatik münasibətlər qurduğu qabaqcıl Qərbi Avropa dövlətlərindən biri Böyük Britaniya oldu. Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1991-ci ilin dekabrın 31-də Böyük Britaniya tərəfindən tanınsa da, Vətən tarixşünaslığında bir çox tədqiqatçıların qeyd etdiyi kimi, əslində iki ölkə arasında siyasi münasibətlərin başlanğıcı hələ SSRİ-nin dağılması ərəfəsində qoyulmuşdu. Belə ki, 1991-ci ilin martında Böyük Britaniyanın SSRİ-dəki səfiri R.Kventin Bakıya səfər edərək Azərbaycan SSR-in prezidenti A.Mütəllibov və digər rəsmi şəxslərlə görüşüb müzakirələr aparmışdı. Bundan iki ay sonra Moskvadakı Britaniya səfirliyinin əməkdaşları D.Loqan və D.Manninq Azərbaycana səfər etmişdilər. Ölkəmizin müstəqil dövlətçiliyinin yenidən bərpası ərəfəsində baş verən bu hadisələrə Vətən tarixşünaslığında fərqli münasibətlər sərgilənir. Məsələn, M.Qasımlı bunu Böyük Britaniyanın Azərbaycan siyasətinin ilk cizgilərinin yaranmasına kömək edən hadisə kimi nəzərdən keçirir [17, s.29]. İ.Musa isə Azərbaycanla birbaşa əlaqələrə önəm verən ingilis diplomatiyasının "kəşfiyyat tədbirləri" kimi xarakterizə edir [20, s.477].

Müstəqil Azərbaycan Respublikası və Böyük Britaniya arasında siyasi-diplomatik münasibətlərin qurulması sahəsində konkret addımlar 1992-ci ildə atıldı. Həmin ilin 11-12 martında xarici işlər üzrə dövlət naziri Duqlas Hoqq başda olmaqla Britaniya nümayəndə heyətinin Bakıya səfərinə bu baxımdan tarixşünaslıqda xüsusi diqqət yönəldilir. Çünki, həmin səfərdən sonra iki ölkə arasında diplomatik münasibətlərin yaradılması haqqında memorandum imzalanmışdı. Vətən tarixşünaslığında bu memorandum Azərbaycan və Böyük Britaniya arasında münasibətlərin hüquqi bazasını təşkil edən ilk sənəd kimi səciyyələndirilir [17, s.31; 18, s.22]. Lakin, ilk mərhələdə qarşılıqlı münasibətlər hələ zəif idi. Buna görə də, 1992-1993-cü illərdə həm Britaniya tərəfi, həm də Azərbaycan tərəfi ikitərəfli münasibətlərin canlandırılması üçün bir sıra addımlar atdı. 1992-ci il iyulun 15-də Brayn Foll Böyük Britaniyanın ölkəmizə təyin olunmuş səfiri kimi öz etimadnaməsini Prezident Əbülfəz Elçibəyə təqdim etdi və bununla da Azərbaycanda sözügedən Qərbi Avropa dövlətinin diplomatik missiyası işə başladı. Səfir B.Foll öz etimadnaməsini təqdim edərkən Azərbaycan Prezidenti bildirdi ki, ölkələr arasında diplomatik əlaqələrin qurulması bir qədər ləngiyib və itirilmiş vaxtın əvəzini çıxmaq üçün var-qüvvə ilə çalışmaq zəruridir.

1992-ci il sentyabrın 7-də Prezident Ə.Elçibəyin dəvəti ilə Böyük Britaniyanın "dəmir ledi" ləqəbli keçmiş baş naziri Marqaret Tetçer Bakıya səfər etdi. Vətən tarixşünaslığında bir çox tədqiqatçılar bunu ilk dönəmlərdə Azərbaycan-Britaniya münasibətlərinə olduqca müsbət töhfə verən hadisə kimi səciyyələndirirlər. Məsələn, İ.Musa yazır ki, M.Tetçerin Azərbaycana səfəri ölkələr arasındakı münasibətlərdə mühüm mərhələ sayıla bilər [20, s.478]. G.Musayeva da bu fikri təsdiq edərək Tetçerin səfərinin Böyük Britaniya ilə daha yaxın iqtisadi və siyasi münasibətlərin qurulmasında mühüm rol oynadığını yazır [31, s.82]. Səfər zamanı baş verən ən əhəmiyyətli hadisə Azərbaycan hökuməti ilə BP (Böyük Britaniya) və Statoyl (Norveç) şirkətləri arasında "Çıraq" neft yatağı və perspektivli "Şahdəniz" qaz-kondensat yatağındakı ehtiyatların dəqiqləşdirilməsi haqqında sazişin imzalanması oldu. Qısa müddət sonra, sentyabrın 28-də ölkəmizə səfər edən ingilis nümayəndə heyətinin başçısı – Böyük Britaniyanın ticarət və sənaye naziri M.Hezaltayn Bakıda BP şirkətinin ofisinin açılışını gerçəkləşdirdi və ölkəsinin Baş naziri Con Meycorun məktubunu Prezident Ə.Elçibəyə təqdim etdi. C.Meycor məktubda açıq şəkildə bildirirdi ki, Böyük Britaniya ölkəmizin ərazi bütövlüyünü dəstəkləyir və Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Böyük Britaniya kimi nüfuzlu dünya dövlətinin belə bir açıq obyektiv mövqe bildirərək Azərbaycana siyasi-mənəvi dəstək verməsini uğurlu qarşılıqlı münasibətlərin nəticəsi hesab etmək olar. Birləşmiş Krallıq özünün bu mövqeyini bütün Qarabağ müharibəsi boyunca davam etdirdi. Məsələn, 1993-cü ilin aprelində Kəlbəcərin işğalından sonra Britaniya hökuməti Ermənistanın təcavüzünü pisləyən bəyanat verdi, Azərbaycanın üzləşdiyi belə çətin durumda ölkəmizə 100 min funt sterlinq humanitar yardım etdi. 1993-cü ilin iyulunda Bakıda Böyük Britaniya səfirliyi açıldı və Tomas Yanq səfir təyin olundu [21, s.358]. Bu dövrdə Baş nazir C.Meycorun dəvəti əsasında Prezident Ə.Elçibəyin Londona rəsmi səfəri də planlaşdırılsa da, Azərbaycanda siyasi şəraitin mürəkkəbləşməsi və hakimiyyət dəyişikliyi buna imkan vermədi. Azərbaycan Respublikası-Böyük Britaniya münasibətlərinin ilk mərhələsindəki (1991-1993-cü illər) bütün bu mühüm mütərəqqi hadisələrə rəğmən Vətən tarix-

şünaslığında bir sıra tədqiqatçılar dövrə sırf tənqidi münasibət bildirir. Məsələn, Ə.Həsənov yazır ki, Azərbaycana hədsiz maraq göstərən İngiltərənin 1992-1993-cü illərdə ölkəmizə təklif etdiyi sıx və hərtərəfli əlaqələr qurmaq təşəbbüsü cavabsız qalmış, o zamankı Azərbaycan rəhbərliyi bu Qərbi Avropa dövləti ilə əlaqələrin yaxşılaşdırılması və inkişaf etdirilməsi üçün heç bir əməli iş görməmişdi [14, s.42-43]. Halbuki yuxarıda qeyd olunan çoxsaylı faktlardan da göründüyü kimi, o dövrkü Azərbaycan hökuməti Böyük Britaniya ilə münasibətlərin inkişaf etdirilməsinə bir çox cəhdlər etmişdi. 1992-1993-cü illər xronoloji çərçivəsində Azərbaycan-Böyük Britaniya münasibətlərinin mövcud durumuna oxşar münasibət bəsləyən digər tədqiqatçı – X.Hacıyeva yazır ki, bu dövrdə ikitərəfli əlaqələr kəmiyyət göstəriciləri baxımdan qənaətbəxş olsa da, eyni fikri keyfiyyət parametrləri baxımdan söyləmək çətindir. Müəllif bu fikrini 3 səbəblə izah edir:

1) Sözügedən dövrdə Azərbaycanda daxili vəziyyətin qeyri-sabitliyi, siyasi proseslərin xaotikliyi;
2) Ölkəmizin Ermənistanın təcavüzünə məruz qalması və regional təhlükəsizliyin pozulması. Bu, Böyük Britaniya hökumətinin, o cümlədən britaniyalı iş adamlarının Azərbaycan iqtisadiyyatına investisiya qoymaq imkanlarını xeyli məhdudlaşdırırdı.
3) Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupunda digər nüfuzlu Qərb dövlətlərindən (ABŞ, Fransa, Almaniya, İtaliya) fərqli olaraq Böyük Britaniyanın yer almaması [10, s.36].

X.Hacıyeva ilə tamamilə eyni mövqedən çıxış edən C.Ələkbərov da qeyd edir ki, diplomatik münasibətlərin qurulduğu ilk illərdə iki ölkə arasındakı əlaqələr ilk baxışdan xoş təsir bağışlasa da, keyfiyyət parametrləri baxımdan bir o qədər də qənaətbəxş olmamışdır [7, s.42].

Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan-Böyük Britaniya münasibətləri Vətən tarixşünaslığında. 1993-cü ilin ikinci yarısından, yəni dahi dövlət xadimi Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonrakı hadisələr Vətən tarixşünaslığındakı tədqiqatçılara əsas verir ki, Azərbaycan-Böyük Britaniya münasibətlərində yeni mərhələnin başlanması fikrini irəli sürsünlər. Təsadüfi deyildir ki, prezident seçildikdən sonra Heydər Əliyevin qəbul etdiyi ilk rəsmi xarici nümayəndə məhz Böyük Britaniyanın xarici işlər üzrə dövlət naziri D.Hoqq olmuşdur. 1993-cü ilin oktyabrında Prezident H.Əliyev və D.Hoqqun görüşündən sonra hökumətlərarası memirandum imzalanmışdı. Sözügedən yeni mərhələnin başlanğıcında baş verən ən mühüm hadisə isə 1994-cü ilin 22-25 fevralında Azərbaycan Prezidentinin Böyük Britaniyaya ilk rəsmi səfəri oldu. Rəsmi səfər zamanı Prezident H.Əliyevin Baş nazir C.Meycor da daxil olmaqla Britaniyanın çoxsaylı rəsmi şəxsləri ilə görüşləri baş tutdu, müxtəlif sahələrdə (siyasi, iqtisadi, mədəni, elmi, humanitar) əməkdaşlığın genişləndirilməsi perspektivləri nəzərdən keçirildi və bir neçə mühüm sənəd imzalandı. Bunların içərisində ən çox diqqəti cəlb edən 12 maddədən ibarət "Azərbaycan və Böyük Britaniya arasında dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə" idi. Bu bəyannamə ilə Azərbaycan və Böyük Britaniya dost və tərəfdaş dövlətlər olduqlarını rəsmi olaraq təsdiq etdilər. Bu səbəbdəndir ki, Vətən tarixşünaslığında Prezident H.Əliyevin Böyük Britaniyaya rəsmi səfəri ölkəmizin xarici siyasət tarixində baş verən mühüm hadisə kimi qiymətləndirilir. M.Qasımlı bunu iki ölkə arasındakı münasibətlərə yeni keyfiyyət halı verən hadisə kimi xarakterizə edir: "Səfər Azərbaycan və Böyük Britaniya arasındakı münasibətlərin başlıca prinsip, istiqamət və vəzifələrini müəyyənləşdirdi, münasibətlərdə yeni mərhələ açdı" [17, s.37]. Ə.Həsənovun fikrincə, Azərbaycan Prezidentinin ilk dəfə olaraq Böyük Britaniya kimi böyük və nüfuzlu Avropa dövlətinə yüksək səviyyəli rəsmi səfərinin başlıca yekunu iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin əsasının qoyulması hesab oluna bilər [14, s.45-46]. C.Ələkbərov sözügedən rəsmi səfəri Azərbaycan-Böyük Britaniya münasibətlərində qarşılıqlı anlaşma mühitinin yaranması və əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində atılan mühüm addım kimi səciyyələndirir [7, s.43-44]. A.Abbasbəyli Prezident H.Əliyevin Fransaya və Böyük Britaniyaya ilk rəsmi səfərləri və bu səfərlərin gedişində imzalanan sənədləri Azərbaycanın Qərbi Avropa dövlətləri ilə inteqrasiyası yolunda atılan böyük addımlar adlandırır [23, s.185]. Z.Adıgözəlov yazır ki, Prezident H.Əliyevin Böyük Britaniyaya üç günlük rəsmi səfəri, bu üç gündə bağlanmış müqavilələr iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin əsasını qoymaqla bərabər, həm də bu münasibətlərin hüquqi-normativ əsaslarını yaratdı [3, s.36]. R.Dadaşova rəsmi səfəri Böyük Britaniya hökumətinin Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatlandırılması baxımından əhəmiyyətini xüsusi vurğulayaraq qeyd edir ki, Britaniya hökuməti Azərbaycan Prezidenti ilə rəsmi görüşdən dərhal sonra

ölkəmizdəki qaçqın və məcburi köçkünlərə humanitar yardım etdi [6, s.184]. Qeyd etmək lazımdır ki, rəsmi səfərdən bir ay sonra diplomat Mahmud Məmmədquliyev ölkəmizin Böyük Britaniyadakı ilk fövqəladə və səlahiyyətli səfiri kimi Azərbaycanın 1994-ci ilin yanvarında Londonda açılmış səfirliyində fəaliyyətə başladı. Hər iki ölkədə qarşılıqlı olaraq səfirliklərin açılması – 1993-cü ildən Bakıda Britaniya səfirliyinin, 1994-cü ildən isə Londonda Azərbaycan səfirliyinin fəaliyyətə başlaması faktı göstərir ki, Böyük Britaniyanın xarici siyasətində ən əhəmiyyətli yer tutan Cənubi Qafqaz ölkəsi məhz Azərbaycan Respublikasıdır. Çünki, müqayisə apardıqda görürük ki, Böyük Britaniyanın Gürcüstan və Ermənistandakı səfirlikləri 1995-ci ildə açılmışdır. Diqqəti cəlb edən digər fakt isə odur ki, hazırda Britaniyanın Bakıdakı səfirliyi postsovet məkanında Moskvadan sonra ikinci ən iri ştata malik diplomatik missiyasıdır.

1994-cü ildə Azərbaycan-Britaniya münasibətlərinin inkişafına töhfə verən növbəti mühüm hadisə sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi"ndə Böyük Britaniyanın əsas iştirakçılardan biri kimi yer alması oldu. Azərbaycan Respublikasının neft strategiyasının başlanğıcı hesab olunan və 13,3 milyard ABŞ dolları həcmində qiymətləndirilən bu müqavilədə iki Britaniya şirkəti – BP və "Remko" iştirak etdi. BP 17,1%, "Remko" isə 2,08% paya sahib oldu [15, s.85]. Vətən tarixşünaslığında bir çox tədqiqatçılar Britaniya şirkətlərinin də iştirak etdiyi "Əsrin müqaviləsi"nin imzalanmasını Azərbaycan-İngiltərə münasibətlərinin yüksəlməsinə təkan verən əsas amillərdən biri kimi xarakterizə edirlər [14, s.49; 3, s.37]. "Əsrin müqaviləsi"nin imzalanması münasibətilə Britaniyanın Baş naziri C.Meycorun Prezident H.Əliyevə göndərdiyi məktubda: bu hadisəni Azərbaycan-Böyük Britaniya münasibətlərində yeni mərhələnin başlanğıcı adlandırması bu mövqeyin haqlı olduğunu göstərir [4, s.46]. Ümumiyyətlə, Vətən tarixşünaslığında da birmənalı şəkildə təsdiqləndiyi kimi, Azərbaycan-Britaniya əlaqələri, iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlıq və dostluq münasibətləri iqtisadi amillərlə sıx bağlıdır. Xüsusilə Birləşmiş Krallığın neft maraqları onun regionda aktivlik nümayiş etdirməsinin əsas səbəblərindən biridir [2, s.295]. Böyük Britaniya Azərbaycan neftinə güclü maraq göstərən ilk Qərb dövlətlərindən biridir. Hələ 1989-cu ildə "Remko" şirkətinin rəhbəri Stiv Rempin Bakıya səfəri və Azərbaycan neftinə investisiya qoymağa təşəbbüs göstərməsi faktı bunu təsdiq edir. Bu mənada, azərbaycanlı tədqiqatçılar (məsələn İ.Musa) "Remko" şirkətini Azərbaycan neftinə müasir dövrdə nüfuz edən xarici şirkətlərin "qaranquşu" adlandırırlar [20, s.488]. Nəinki Böyük Britaniyanın, eləcə də dünyanın ən böyük neft şirkətlərindən biri olan BP isə ölkəmizə 1991-ci ildən maraq göstərməyə başlamışdır. İlk vaxtlar bu şirkət Norveçin "Statoil" şirkəti ilə birgə alyans kimi çıxış etmiş, 1992-ci ilin sentyabrında hər iki şirkət Azərbaycan hökuməti ilə "Çıraq" və "Şahdəniz" yataqlarının ehtiyatlarının dəqiqləşdirilməsi barədə saziş imzalamışdı. 1993-cü ilin mayında isə Azərbaycan Respublikasının baş naziri P.Hüseynovun İngiltərəyə səfəri zamanı neftçıxarma sahəsində əməkdaşlıq məsələləri müzakirə edilmişdi. Lakin, 1991-1993-cü illərdə irihəcmli xarici investisiyaların Azərbaycanın neft-qaz sektoruna cəlb edilməsi və nəhəng enerji layihələrinin həyata keçirilməsi baş tutmamışdı. Bu, H.Əliyevin prezidentliyi dövründə bütün çətinliklərə və risklərə rəğmən reallığa çevrildi. Təsadüfi deyildir ki, Prezident H.Əliyevin yürütdüyü yeni xarici siyasət strategiyası özünün bir sıra mühüm xüsusiyyətləri (Azərbaycanın aparıcı dünya dövlətləri ilə münasibətlərində siyasi və iqtisadi məsələlərin vəhdətdə götürülməsi, milli maraqların təmin edilməsi əsasında ölkəmizin enerji resurslarından səmərəli istifadə olunması – B.M.) səbəbindən bəzən tarixşünaslıqda "neft diplomatiyası" adlandırılır.

Yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın xarici siyasət sahəsindəki uğurları, Böyük Britaniya kimi aparıcı Qərb dövlətləri ilə yaxınlaşması ilk vaxtlar regiondakı iri dövlətləri, xüsusilə Rusiyanı narahat etmişdi. Məsələn, 1994-cü ilin aprelində – Xəzərin Azərbaycan sektorundakı yataqlarının birgə işlənməsi barədə xarici neft şirkətləri ilə intensiv danışıqların aparıldığı bir vaxtda Rusiya Xəzərin statusu məsələsini qaldırmışdı. 1994-cü ilin fevralında Azərbaycan ilə Böyük Britaniya arasında imzalanmış "Enerji sahəsində əməkdaşlıq haqqında" memorandumda "Xəzər dənizinin Azərbaycan sektoru" ifadəsinin qeyd edilməsinə etiraz edən nota RF XİN tərəfindən Britaniyanın Rusiyadakı səfiri B.Folla təqdim edilmiş və bildirilmişdi ki, Xəzər neftinin istismarı və ya nəqlinə yönələn istənilən enerji layihəsi Xəzəryanı ölkələrin hamısının razılığı olmadan hüquqi qüvvəyə malik ola bilməz [25, s.72]. Notanın rəsmi Bakıya deyil, rəsmi Londona verilməsini tədqiqatçı A.Rzayev Rusiyanın Azərbaycan-Böyük Britaniya yaxınlaşmasından nə qədər çox narahat olmasının bariz göstəricisi kimi xarakterizə edir [22, s.405]. XX əsrin 90-cı illərinin əvvəllərində Rusiyanın belə bir reaksiyası müəyyən mənada qaçılmaz

idi. Belə ki, iki əsrə yaxın Cənubi Qafqaz regionunda yeganə hegemon qüvvə olmuş Rusiya Sovet İttifaqının dağılmasından sonra da sözügedən regionu özünün maraq zonası kimi görür və regionda baş verən siyasi proseslərə də bu prizmadan yanaşırdı. Mövcud şəraitdə balanslaşdırılmış xarici siyasətin yürüdülməsi son dərəcə vacib idi. Çünki Azərbaycan belə bir dilemma qarşısında qalmışdı: ölkəmiz bir tərəfdən öz xarici siyasət xəttini tamamilə Rusiyanın maraqlarına uyğun qura bilməzdi, digər tərəfdən Cənubi Qafqaz regionunda hakim qüvvələrdən biri olan şimal qonşusu ilə dostluq münasibətlərini poza bilməzdi. Bu baxımdan, Prezident H.Əliyevin başçılıq etdiyi Azərbaycan diplomatiyası siyasi manevr edərək həm Rusiyanın, həm də ABŞ, Böyük Britaniya və Norveç kimi Qərb ölkələrinin neft şirkətlərini "Əsrin müqaviləsi"nə cəlb etdi və bu uğurlu siyasət nəticəsində Azərbaycan qlobal enerji təchizatçısına çevrilərək beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmağa başladı.

Beləliklə, 1994-cü ildə baş verən mühüm hadisələr, qarşılıqlı anlaşma məqamlarının üstünlüyü səbəbindən Vətən tarixşünaslığında bir çox tədqiqatçılar məhz həmin ildə Azərbaycan-Böyük Britaniya münasibətlərinin möhkəm təməlinin qoyulması qənaətinə gəlirlər. Həqiqətən də, bu təməl bazasında rəsmi Bakı-London əlaqələri sonrakı illərdə də yüksələn trayektoriya ilə inkişaf etdi. 1995-ci ilin yanvarında BP şirkətinin direktorlar şurasının sədri lord Eşbertonun başçılıq etdiyi, yanvar-fevral aylarında "Şell" şirkətinin nümayəndə heyətlərinin Bakıya səfərləri, həmin ildə iki dəfə (may və noyabr-dekabr) Prezident H.Əliyevin Londona işgüzar səfər etməsi, 1995-ci ilin iyununda ARDNŞ ilə BP və TPAO ("Türkiye Petrolleri Anonim Ortaklığı") şirkətləri arasında "Şahdəniz" yatağının istismarına dair ilkin saziş imzalanması bunun sübutudur. Qeyd etmək lazımdır ki, "Şahdəniz" hazırda respublikamızdakı əsas qaz yatağıdır və onun təxmini karbohidrogen ehtiyatları 1 trilyon kubmetrdən çox təbii qaz və 400 milyon tondan çox qaz kondensatı həcmində qiymətləndirilir [25, s.58]. Vətən tarixşünaslığında bir sıra müəlliflər Böyük Britaniya şirkətlərinin qısa müddət ərzində Azərbaycanda 40 ofis açması faktına xüsusi diqqət yönəldirlər. Ə.Həsənov bunu 1994-1995-ci illərdə Azərbaycanın bu ölkə ilə apardığı xüsusi diplomatik və siyasi işin yüksək səmərə verməsi, M.Qasımlı isə iki ölkə arasında qarşılıqlı iqtisadi asılılığın güclənməsi kimi xarakterizə edir [14, s.53; 17, s.41].

1996-cı ilin yanvarında Böyük Britaniyanın xarici işlər naziri M.Rifkindin ölkəmizə rəsmi səfəri zamanı AR və Birləşmiş Krallıq hökumətləri arasında sərmayələrin qorunması və təşviqi haqqında saziş imzalandı, həmin ilin mayında Birləşmiş Krallıq hökuməti Azərbaycana ixrac kreditlərinin verilməsi haqqında qərar qəbul etdi. E.Məmmədli bu fakta əsaslanaraq Böyük Britaniyanı respublikamıza kredit zəmanətləri vermiş ilk Qərb ölkəsi adlandırır [18, s.122]. 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitində Böyük Britaniyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və prinsipial mövqeyini təkrar bəyan edərək bu problemin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə biləcəyini bildirməsi faktı da Vətən tarixşünaslığında əksər tədqiqatçıların diqqət yetirdiyi mühüm məqamlardandır [3, s.40-41; 12, s.58; 17, s.42]. 1997-ci il seçkilərində qalib gələn Leyboristlər partiyasından olan yeni Baş nazir Toni Blerin də liderliyi illərində (1997-2007) Böyük Britaniyanın bu siyasəti dəyişmədi. 1997-ci il sentyabrın 1-də Dağlıq Qarabağda qondarma qurumun keçirdiyi qeyri-qanuni seçkilərlə əlaqədar olaraq Birləşmiş Krallıq hökuməti bəyanatla çıxış edərək öz etirazını bildirməsi bunun ilk təzahürü idi. Doğrudur, digər Qərb ölkələri kimi Böyük Britaniya dairələrində də bəzən ikili standartlardan çıxış edilməsi, ermənipərəst mövqe sərgilənməsi halları baş vermişdir. İ.Musa AŞ PA-da qondarma erməni soyqırımının tanınması ilə əlaqədar 320 saylı bəyanatı imzalayan 63 parlamentaridən 11-nin Böyük Britaniya təmsilçisi olması faktını, Dağlıq Qarabağ münaqişəsinin tarixi kökləri və mahiyyəti ilə bağlı faktları saxtalaşdıraraq antiazərbaycan təbliğatı aparan baronessa Koks amilini buna nümunə kimi göstərir [20, s.483-484].

XX əsrin sonlarında ikitərəfli münasibətlərinin yüksələn tendensiya ilə inkişafına təkan verən mühüm hadisələrdən biri 1998-ci ilin 19-24 iyulunda Prezident H.Əliyevin Böyük Britaniyaya ikinci dəfə rəsmi səfəri etməsi oldu. Doğrudur, artıq həmin rəsmi səfərə kimi Azərbaycan-Böyük Britaniya dostluq və əməkdaşlıq münasibətlərinin möhkəm bünövrəsi qurulmuş, hüquqi-müqavilə bazasının əsası qoyulmuşdu. Lakin, 1998-ci il səfərindən sonra iki ölkə arasında münasibətlər daha yüksək inkişaf tempi üzrə davam etməyə başladı, siyasi-strateji tərəfdaşlıq və qarşılıqlı əməkdaşlıq əlaqələri daha da genişləndirildi. Səfər zamanı Prezident H.Əliyev və Britaniyanın yeni baş naziri T.Bler ilə yanaşı, Bukingem sarayında kraliça II Yelizaveta ilə də görüşdü. Kraliça Azərbaycanda dövlət quruculuğu sahəsində görülən işlərin Böyük Britaniya tərəfindən maraqla izlənildiyini bildirdi [5, s.126]. Baş nazir

T.Bler bəyan etdi ki, Azərbaycan – Böyük Britaniyanın strateji müttəfiqidir. Böyük Britaniyanın energetika naziri Con Battl isə öz çıxışında Azərbaycanı "Cənubi Qafqaz regionunda açar rolunu oynayan ölkə" adlandıraraq bildirdi ki, Birləşmiş Krallıq bu ölkəni özünün layiqli tərəfdaşı hesab edir [17, s.47-48]. Rəsmi səfərin gedişində baş verən ən mühüm hadisə isə 21 iyul 1998-ci ildə Azərbaycan və Birləşmiş Krallıq arasında 16 bənddən ibarət dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamənin imzalanması oldu. Böyük Britaniya kimi aparıcı dünya dövləti ilə belə bir müqavilənin imzalanması ölkəmiz üçün nəhəng siyasi əhəmiyyət kəsb edirdi. Səfər zamanı Britaniya neft şirkətlərinin iştirakı ilə Xəzərin Azərbaycan sektorundakı müxtəlif perspektivli strukturların ("Araz", "Alov", "İnam" və d.), habelə "Muradxanlı" və "Cəfərli" neft yataqlarının kəşfiyyatı və işlənilməsinə dair üç saziş imzalandı. Prezident H.Əliyev səfər zamanı İngiltərə-Azərbaycan cəmiyyətinin (*Anglo-Azerbaijani Society*) toplantısında da iştirak etdi. 1997-ci ildə yaradılmış bu təşkilatın məqsədi Azərbaycan həqiqətlərini Britaniya ictimaiyyətinə çatdırmaq, xalqımızın qədim tarixə malik mədəniyyətini, incəsənətini təbliğ etmək, respublikamıza cəlb olunan ingilis şirkətlərini sayını artırmaqdır. İ.Musa yazır ki, bu cəmiyyət Azərbaycanın dünyadakı ilk lobbi təşkilatlarından biridir [20, s.480]. Bütün bu xüsusiyyətlərinə görə, sözügedən rəsmi səfəri Vətən tarixşünaslığında birmənalı şəkildə yüksək qiymətləndirilir. M.Qasımlı bunu iki ölkə arasında münasibətlərdə nəhəng perspektivlər açan və böyük tarixi əhəmiyyət kəsb edən hadisə kimi xarakterizə edir [17, s.49]. E.Məmmədli, C.Ələkbərov və Z.Adıgözəlov yazır ki, səfər ölkələr arasında ikitərəfli münasibətlərin inkişafında əsaslı rol oynadı [18, s.30; 7, s.50; 24, s.152]. 1998-ci il səfərini iki ölkə arasındakı münasibətlərdə yeni səhifə açan hadisə kimi səciyyələndirən A.Rzayev yazır ki, əgər ilk vaxtlarda digər Avropa ölkələri kimi Böyük Britaniya da Azərbaycanla münasibətlərə sırf iqtisadi maraqlar prizmasından baxırdısa, bu hadisədən sonra Azərbaycan ilə enerji əməkdaşlığını iqtisadi müstəvidən strateji müstəviyə keçirdi [22, s.408-409]. T.Mustafazadə vurğulayır ki, sözügedən rəsmi səfər Azərbaycan-Böyük Britaniya münasibətlərinin strateji əməkdaşlıq səviyyəsinə çatmasına yardım etdi [21, s.358].

Rəsmi səfərdən sonra ölkəmizin Böyük Britaniya ilə müxtəlif sahələrdə, xüsusilə enerji sahəsində əməkdaşlığı daha da dərinləşdi. 1999-cu ilin iyununda BP Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) əsas əməliyyatçı təyin edildi. Bu baxımdan, Vətən tarixşünaslığında BP şirkətinin ölkəmizin beynəlxalq nüfuzunun artmasında və iqtisadi inkişafında müstəsna rolunun olması qənaətinə gəlinir. Məsələn, A.Məsimov isə yazır: "Azərbaycanın dünya miqyasında tanınmasında, iqtisadi müstəqilliyinin möhkəmləndirilməsində BP şirkətinin xidmətləri çox böyükdür" [19, s.103-104]. Yaxud, A.Rzayev BP-ni Azərbaycanın iqtisadi inkişafında önəmli rol oynamış şirkət kimi xarakterizə edir [22, s.408]. Qeyd etmək lazımdır ki, ABƏŞ "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişi həyata keçirmək məqsədilə 1995-ci ilin fevralında yaradılmış konsorsiumdur. AÇG yataqlarından neftin və "Şahdəniz" yatağından təbii qazın çıxarılması məhz bu konsorsiuma birbaşa xarici investisiyaların qoyulması hesabına mümkün olub. Belə bir iri konsorsiumun əməliyyatçısının BP şirkəti təyin edilməsi isı heç də təsadüfi deyil. Belə ki, 1994-cü ildə "Əsrin müqaviləsi" imzalanarkən ən çox paya sahib olan xarici şirkət məhz BP olmuşdu. Bundan xeyli sonra – 2017-ci ilin sentyabrında AÇG yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişə əlavə və dəyişiklikləri ehtiva edən (adı çəkilən yataqların 2050-ci ilə qədər işlənməsini nəzərdə tutan) sənəd imzalanarkən də BP ən çox səhmlərə malik şirkət kimi liderliyini qoruyub saxlayıb [31, s.158]. Bunu aşağıdakı cədvəldən də aydın şəkildə müşahidə etmək olar:

Sıra sayı	**Şirkətlər**	**Sahib olduğu səhmlər**
1.	BP (Böyük Britaniya)	30,37%
2.	ARDNŞ	25,0%
3.	MOL (Macarıstan)	9,57%
4.	Inpex (Yaponiya)	9,31%
5.	Statoil (Norveç)	7,27%
6.	ExxonMobil (ABŞ)	6,79%
7.	TPAO (Türkiyə)	5,73%
8.	Itochu (Yaponiya)	3,65%
9.	ONGC Videsh Limited (Hindistan)	2,31%

Vətən tarixşünaslığında çox vaxt qeyd edilməsə də, XX əsrin son illərində Azərbaycan və Böyük Britaniya arasındakı münasibətlərdə əhəmiyyətli yüksəlişin mühüm səbəblərindən biri T.Bler baş nazir seçildikdən sonra ABŞ-Böyük Britaniya münasibətlərinin yeni keyfiyyət mərhələsinə keçid etməsi idi. Ümumiyyətlə, ilk öncə onu qeyd etmək lazımdır ki, ABŞ və Böyük Britaniya arasında tarixən sıx əlaqələr mövcud olmuş və bu, hələ U.Çörçill zamanından "xüsusi münasibətlər" (*Special Relationship*) adlandırılmışdır. Bunun səbəbini bir tərəfdən mədəniyyət və dil cəhətdən yaxınlıq, digər tərəfdən geosiyasi tələbatla izah etmək olar. T.Blerin hakimiyyətə gəlməsindən sonra isə "xüsusi münasibətlər" daha yüksək səviyyəyə qaldırıldı. Bəs bunun Azərbaycan-Böyük Britaniya münasibətlərinə təsiri necə idi? Məsələ burasındadır ki, SSRİ-nin dağılmasından sonra ilk vaxtlarda Böyük Britaniya da daxil olmaqla Avropa ölkələri Xəzər dənizindəki enerji resurslarının istismarı məsələsində ABŞ ilə eyni mövqedən çıxış etmirdilər. Bu məsələ ABŞ üçün strateji əhəmiyyət kəsb etdiyi halda, Avropa ölkələrində ona yalnız iqtisadi nöqteyi-nəzərdən baxılırdı. Məsələyə ABŞ-da necə böyük əhəmiyyət verilməsi 1997-ci ilin mayında Ağ Evdə qəbul edilən "Yeni Əsr üçün Milli Təhlükəsizlik Strategiyası"nda da açıq şəkildə göstərilmişdi: "200 milyard barrel potensial neft ehtiyatlarına malik olan Xəzər hövzəsi növbəti onilliklərdə dünyanın artan enerji tələbatının ödənilməsində getdikcə daha mühüm rol oynayacaq" [1, s.18]. Burada həmçinin Qafqazdakı sabitliyin vacibliyi də xüsusi vurğulanırdı: "Sabit və firavan Qafqaz Aralıq dənizindən Çinə qədər sabitliyin və təhlükəsizliyin təminatına kömək edir və ABŞ-ın yaxından iştirakı ilə Xəzərin geniş neft-qaz ehtiyatlarının beynəlxalq bazarlara nəqlini asanlaşdırır" [1, s.23]. Beləliklə, sözügedən dönəmdə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsinin reallaşdırılması ABŞ-ın xarici siyasətində həlli vacib prioritetlərdən biri idi. Belə bir şəraitdə BTC-nin iqtisadi baxımdan səmərəli olmadığını iddia edən BP kimi nəhəng şirkətin timsalında Böyük Britaniya bu layihənin əleyhinə çıxış edirdi. Lakin, T.Bler hökumətinin yürütdüyü xarici siyasət xətti nəticəsində baş verən transformasiya, yəni "xüsusi münasibətlərin" yenidən aktuallaşmasından sonra Böyük Britaniyanın bu sahədəki maraqları ABŞ ilə uzlaşdırıldı və hər iki Qərb ölkəsi məsələ ilə bağlı eyni mövqedən çıxış etməyə başladı. Burada bir faktı da qeyd etmək yerinə düşərdi. Belə ki, Vətən tarixşünaslığında da bir çox tədqiqatçıların, o cümlədən A.Məsimovun təsdiqlədiyi kimi, sözügedən dövrdə BTC layihəsi bir çox qüvvələrin ciddi müqaviməti ilə üzləşmiş, həmin qüvvələr bu layihənin reallaşmasına maneə törətməyə çalışmışdılar [19, s.217]. Belə qüvvələr hətta ABŞ-ın öz daxilində də var idi. Bununla bağlı Prezident İlham Əliyev yazır ki, BTC kəməri reallaşdırılan zaman ABŞ Konqresindəki ermənipərəst xadimlər hər vasitə ilə bizə mane olmağa çalışmış, kəmər əleyhinə təbliğat aparılmışdı [9, s.167]. Bir çox rusiyalı analitiklər də öz ölkələrindən yan keçən alternativ neft kəmərinin çəkilişinin əleyhinə çıxış etmişdilər. Çünki onlar belə hesab edirdilər ki, bu, ABŞ başda olmaqla Qərbin Xəzər regionunda mövqeyinin güclənməsinə, Rusiyanın təsirinin isə zəifləməsinə gətirib çıxaracaq.

XXI əsrin əvvəllərində Azərbaycan-Böyük Britaniya münasibətləri Vətən tarixşünaslığında. XXI əsrin əvvəllərində Azərbaycan-Böyük Britaniya münasibətləri qarşılıqlı əməkdaşlıq və strateji tərəfdaşlıq çərçivəsində uğurla davam etdi. Vətən tarixşünaslığında yeni minilliyin ilk onillikləri iki ölkə arasında münasibətlərin dinamik tempdə inkişaf etməsi, qarşılıqlı əməkdaşlığın genişlənməsi ilə xarakterizə edilir. M.Qasımlı yazır ki, Azərbaycan və Böyük Britaniya münasibətlər 2001-ci ildən sonra da özünün əvvəlki dinamizmini saxladı [17, s.49]. A.Rzayev sözügedən dövrü Azərbaycan və Birləmiş Krallıq arasında əməkdaşlığın genişlənməsi ilə səciyyələnən zəngin bir dövr kimi qiymətləndirir [22, s.411]. Z.Adıgözəlov belə qənaətə gəlir ki, bu dövrdə Böyük Britaniya Azərbaycanla siyasi münasibətlərin intensivliyi baxımdan bir çox digər Avropa ölkələrini dəfələrlə üstələmişdir [3, s.42]. İ.Musa XXI əsrdə dövlətlərarası əlaqələrin ümidverici perspektivlərə malik olduğunu vurğulayır və bunun səbəbini aşağıdakı amillərlə şərtləndirir:

- ✓ Birləşmiş Krallığın Azərbaycana həm Qafqaz, həm də Mərkəzi Asiya regionunun "açar ölkəsi" kimi baxması;
- ✓ Respublikamızın karbohidrogen ehtiyatlarının istismarı və nəqlində Britaniyanın hədsiz dərəcədə maraqlı olması;
- ✓ Avropanın əsas aparıcı dövlətlərindən biri sayılan Böyük Britaniya ilə hərtərəfli sıx əməkdaşlıqda Azərbaycan Respublikasının yetərincə maraqlı olması [20, s.489-490].

Vətən tarixşünaslığında yuxarıdakı mövqelərin haqlı olduğunu XXI əsrin ilk onilliklərində Azərbaycan-Böyük Britaniya münasibətlərinin inkişaf dinamikasının müsbət tendensiyada davam etməsini göstərən aşağıdakı hadisələr təsdiq edir:

1) 2004-cü ilin dekabrında Prezident İ.Əliyevin Böyük Britaniyaya ilk rəsmi səfəri və Baş nazir T.Bler, kraliçanın nümayəndəsi baronessa Sekombe, müdafiə naziri Ceff Hun, BP-nin prezidenti Con Braun və digər yüksək rəsmi şəxslərlə görüşü. Bu səfərin gedişində 1998-ci ildə imzalanmış "Dostluq münasibətləri və tərəfdaşlıq haqqında bəyannamə" yenidən təsdiq edilmiş, ikitərəfli münasibətlərə dair Birgə Kommünike qəbul edilmişdi.

2) 2009-cu ilin iyulunda Prezident İ.Əliyevin Böyük Britaniyaya rəsmi səfəri və Kraliça II Yelizaveta, Baş nazir Qordon Braun kimi dövlət xadimləri ilə görüşü. Tərəflər arasında danışıqlar başa çatdıqdan sonra ARDNŞ və BP arasında Xəzərin Azərbaycan sektorundakı "Şəfəq" və "Asiman" perspektiv strukturlarının (qaz-kondensat yataqlarının – B.M.) birgə geoloji kəşfiyyatı və işlənməsi üzrə qarşılıqlı anlaşma memorandumu imzalandı. Həmin ilin sentyabrında Londonda Britaniya-Azərbaycan Biznes Şurası (*Britain-Azerbaijan Business Council*; BABC) təsis edildi [8, s.70].

3) 2012-ci ilin iyul-avqustunda Prezident İ.Əliyev və birinci xanım M.Əliyevanın Böyük Britaniyaya işgüzar səfəri. Bu səfərin gedişində Londonda "Azərbaycan günü" keçirilmiş (28 iyul), Prezident İ.Əliyev Baş nazir Devid Kemeron ilə görüşü (3-6 avqust) baş tutmuşdu.

4) 2015-ci ildən AR və Birləşmiş Krallıq hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə birgə komissiyanın fəaliyyətə başlaması.

5) 2018-ci ilin aprelin 26-da Prezident İ.Əliyevin Böyük Britaniyaya birgünlük səfəri və Baş nazir Tereza Mey ilə görüşü. Səfər zamanı ARDNŞ və BP arasında Xəzərin Azərbaycan sektorunda yerləşən və təxminən 3200 km^2 ərazini əhatə edən D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənməsi üzrə saziş imzalandı. Bu şura ingilis şirkətlərinin təmsilçilərinin Azərbaycana müntəzəm səfərlərini, habelə Böyük Britaniyada ölkəmizə həsr edilmiş biznes tədbirlərini təşkil edir.

6) 2020-ci ildəki 44 günlük Vətən müharibəsində Böyük Britaniya tərəfindən Azərbaycanın ədalətli mövqeyinin dəstəklənməsi. Müharibənin başladığı ilk günlərdə Böyük Britaniya sükut nümayiş etdirsə də, 19 oktyabr 2020-ci ildə BP-nin Azərbaycandakı direktoru Qeri Cons Azərbaycanın enerji kommunikasiyalarının Böyük Britaniya üçün strateji əhəmiyyətini vurğulayaraq ölkəmizi de-fakto dəstəkləyən bəyanatla çıxış etdi. Oktyabrın 20-də isə Böyük Britaniyanın Xarici İşlər naziri Dominik Raab Britaniya-Türkiyə münasibətlərinin strateji xarakterini vurğulamaqla Ankaranı "müttəfiq və dost" adlandırdı və Qərbin Türkiyə ilə bağlı mövqeyini yenidən qiymətləndirmək cəhdlərini pislədi [31, s.245]. Azərbaycanın ərazi bütövlüyünü rəsmi şəkildə dəstəkləyən Böyük Britaniya hökuməti bu mövqeyini təsdiqləmək üçün konkret addımlar atmış, 44 günlük müharibə zamanı Britaniya parlamentində qanunvericilik təşəbbüsləri irəli sürülmüşdür.

7) 2021-ci ildə Bakı şəhərində Britaniya Ticarət və Sənaye Palatasının açılması.

Nəticə. Beləliklə, Vətən tarixşünaslığında problemə dair tədqiqat əsərlərinin müqayisəli təhlilindən və ümumiləşdirmələrdən bəlli olur ki, XXI əsrin əvvəlləri Azərbaycan və Böyük Britaniya arasında münasibətlərin strateji tərəfdaşlıq və əməkdaşlıq şəraitində uğurla davam etmişdir. Son onilliklərdə ikitərəfli münasibətlərdəki belə inkişaf tendensiyası həm siyasi, həm iqtisadi, həm mədəni, həm də elm və təhsil sferasında özünü göstərir. Böyük Britaniya Azərbaycanın həm neft, həm də qeyri-neft sektorunda ən böyük investorlardan biridir. Hazırda ölkəmizdə 450-dən çox ingilis şirkəti fəaliyyət göstərir ki, Azərbaycana qoyulan bütün xarici investisiyaların təqribən yarısı onların payına düşür. 2023-cü ilin məlumatına görə, Böyük Britaniyanın Azərbaycan iqtisadiyyatına qoyduğu investisiyanın həcmi 30 milyard ABŞ dollarından artıqdır. İki ölkə arasında nəhəng ticarət dövriyyəsi də iqtisadi əlaqələrin nə qədər güclü olmasını sübut edən amillərdəndir. Belə ki, təkcə 2022-ci ildə Azərbaycan və Birləşmiş Krallıq arasında ümumi ticarət dövriyyəsi 1 milyard ABŞ dollarından çox olmuşdur. Ölkələr arasında iqtisadi əlaqələrin özəyində enerji sahəsində tərəfdaşlıq dayanır. 30 ildən çoxdur ki, enerji sahəsində sıx əməkdaşlıq edən Azərbaycan və Böyük Britaniya bu sahədə qarşılıqlı faydalılıq və davamlılıq prinsiplərinə əsaslanan uğurlu model yarada bilmişdirlər. Onu da qeyd etmək lazımdır ki, ölkələr arasında enerji sahəsində əməkdaşlıq təkcə iqtisadi xarakter kəsb etməyib, həm də strateji əhəmiyyətə malikdir. Məsələ burasındadır ki, "Breksit" prosesinin gedişində – 2020-ci ildə Böyük Britaniya Avropa İttifaqını tərk etsə də, özünü Aİ ölkələrindən təcrid etmək fikrində olmayıb, əksinə, əməkdaşlığı davam etdir-

mək, Aİ-nin enerji təhlükəsizliyinin möhkəmləndirilməsində yaxından iştirak etmək kimi xarici siyasət strategiyası həyata keçirir. Bu mənada, Böyük Britaniyanın Azərbaycanla enerji əməkdaşlığı strateji əhəmiyyət kəsb edir. Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində necə mühüm bir rola malik olmasını isə 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra həm Böyük Britaniya, həm də Aİ daha aydın dərk etmişdir. Qeyd etmək lazımdır ki, son onillikdə uğurla həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində Azərbaycan hazırda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Bundan əlavə, Azərbaycan və Böyük Britaniya arasında elmi və mədəni əlaqələr də getdikcə genişlənməkdədir. 2015-ci ildə Oksford Universitetində ölkəmizin tarixi, dili və mədəniyyətinin tədqiqi məqsədilə Nizami Gəncəvi Mərkəzinin (*Oxford Nizami Ganjavi Centre*) təsis edilməsi, Azərbaycan və Britaniyanın ali məktəbləri arasında ikili diplom proqramı üzrə sazişlərin imzalanması və s. buna misal göstərilə bilər. Həmçinin, Böyük Britaniyada Azərbaycanın çoxsaylı diaspora təşkilatlarının fəaliyyət göstərməsi də ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verir.

ƏDƏBİYYAT

1. A National Security Strategy for A New Century. Washington, 1997, 29 p.
2. Abbasbəyli A. Dünya siyasəti. Bakı, "Nurlar", 2011, 584 s.
3. Adıgözəlov Z. Azərbaycan Respublikasının Avropa İttifaqı ölkələri ilə siyasi əlaqələri (1991-2006). Bakı, "CBS PP", 2015, 200 s.
4. Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Red. İ.Mirzəbəyli. Bakı, "Əbilov, Zeynalov və oğulları", 2001, 451 s.
5. Böyük liderin 90 anı. Bakı, "Şərq-Qərb", 2013, 247 s.
6. Dadaşova R. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı. Bakı, "ADMİU-nun mətbəəsi", 2021, 344 s.
7. Ələkbərov C. Azərbaycan-Böyük Britaniya əlaqələri (1991-2008-ci illər). Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis. Bakı, 2018, 160 s.
8. Ələkbərov C. Beynəlxalq münasibətlər sistemində Azərbaycan-Böyük Britaniya əməkdaşlığı. Tarix, insan və cəmiyyət, №4 (27), 2019, s.60-71.
9. Əliyev İ. Azərbaycanıma inanıram. Bakı, "Azərnəşr", 2007, 376 s.
10. Hacıyeva X. Azərbaycan Respublikasının xarici siyasətində aparıcı Qərb dövlətləri və NATO (1991-1995). Tarix e.n. e. dər. al. üçün təq. ol. dis. Bakı, 2001, 168 s.
11. Həbibbəyli Ə. Azərbaycan Respublikasının Böyük Britaniya ilə xarici əlaqələrinin əsas istiqamətləri. İqt. e.n. e. dər. al. üçün təq. ol. dis. Bakı, 2006, 170 s.
12. Həsənov Ə. Azərbaycan və ATƏT. Bakı, "İşıq", 1997, 80 s.
13. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, "Elm", 2000, 368 s.
14. Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Bakı, "Azərnəşr", 1998, 315 s.
15. Həsənov Ə. Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti. Bakı, "Zərdabi LTD", 2016, 295 s.
16. İbrahimov M. Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri). Bakı, "Turxan" NPB, 2020, 224 s.
17. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə. Bakı, "Mütərcim", 2015, 640 s.
18. Məmmədli E. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003-cü illər). Bakı, "Adiloğlu", 2003, 173 s.
19. Məsimov A. BP-Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranması və fəaliyyəti. Bakı, "Elm və təhsil", 2018, 256 s.
20. Musa İ. Azərbaycanın xarici siyasəti. Üç hissədə. Üçüncü hissə. Bakı, "Bakı Universiteti", 2011, 776 s.
21. Mustafazadə T. XVIII-XXI əsrin əvvəllərində Azərbaycanın beynəlxalq siyasi münasibətləri. Bakı, "Avropa", 2021, 544 s.

22. Rzayev A. Azərbaycan-Böyük Britaniya münasibətləri // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016). Bakı, "Poliart", 2017, 904 s. – s.399-422.
23. Аббасбейли А.Н. Азербайджан в системе международных и региональных организаций. Баку, «Азернешр», 1999, 256 с.
24. Адыгезалов З.Н. Политические аспекты азербайджано-британских отношений. Вестник КазНУ, 2011, №1-2 (51-52), с. 150-154.
25. Алиев И.Г. Каспийская нефть Азербайджана. Москва, «Известия», 2003, 712 с.
26. Алиев Н.А. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке. Баку, «Letterpress», 2010, 244 с.
27. Алиева М.М. Азербайджано-Британские отношения на современном этапе: становление, развитие и перспективы. Дис. канд. полит. наук. Баку, 2006, 146 с.
28. Алиева М.М. Азербайджано-британские отношения на современном этапе. Баку, «MBM», 2013, 272 с.
29. Гёзалова Н.Р. Место Азербайджана в восточной политике Великобритании в первой трети XIX века. Баку, "Elm və təhsil", 2017, 357 с.
30. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку, «Изд-во Бакинского университета», 1991, 264 с.
31. Мусаева Г.М. Нефтяной фактор в азербайджанской политике Великобритании (1991-2022 гг.). Баку, «Aspoliqraf», 2023, 312 с.
32. Юсиф-заде С.З. Азербайджано-британские отношения в начале XX века. Баку, «Təhsil», 2008, 128 с.

БАЛАМИРЗА МАМЕДЛИ
Докторант Бакинского Государственного Университета

ОТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКОЙ И ВЕЛИКОБРИТАНИЕЙ В ОТЕЧЕСТВЕННОЙ ИСТОРИОГРАФИИ

Анализ взаимоотношений Азербайджанской Республики и Великобритании в контексте отечественной (национальной) историографии имеет большое научное и политическое значение. Так как, Соединенное Королевство Великобритании и Северной Ирландии играет важную роль в современной системе международных отношений как одна из великих держав мира. Великобритания, которую когда-то называли «промышленной мастерской мира», и сегодня является страной с сильной экономикой, занимая 6-е место в мире и 2-е место в Европе (после Германии) по объему ВВП (3,5 трлн долларов в 2024 году). Великобритания, являющаяся одним из основных членов влиятельных организаций (таких как НАТО, Совет Европы, Совет Безопасности ООН, G7), также обладает мощным военно-политическим потенциалом. Так как, Великобритания входит в число 9 стран, обладающих ядерным оружием в мире, и занимает первое место в Европе по объему ежегодных военных расходов. Установление и развитие успешных взаимоотношений с таким государством, несомненно, важно для Азербайджана. Среди факторов, определяющих важность дружеских отношений с Великобританией, можно назвать формирование позитивного мнения об Азербайджане путем его надлежащего представления мировому сообществу, открытие благоприятных возможностей для интеграции нашей страны в престижные международные организации и передовые структуры Европы, обеспечение мира и безопасности на Южном Кавказе и в Каспийском регионе, поддержание традиций демократии и парламентаризма и т.д.

В статье впервые в контексте отечественной историографии изучены современные азербайджано-британские отношения, что является не только научным новшеством, но и крайне важно с точки зрения более точного отслеживания динамики исторического развития отношений двух стран и определения их нынешних и будущих перспектив.

Ключевые слова: Азербайджанская Республика, Великобритания, внешняя политика, международные отношения, нефть, отечественная историография.

BALAMIRZA MAMMADLI
PhD student at Baku State University

RELATIONS BETWEEN THE AZERBAIJAN REPUBLIC AND GREAT BRITAIN IN DOMESTIC HISTORIOGRAPHY

The analysis of the relations between Azerbaijan Republic and Great Britain in the context of the domestic (national) historiography is of great scientific and political importance. So, the United Kingdom of Great Britain and Northern Ireland has an important role in the modern international relations system as one of the great powers in the world. Great Britain, which was once called the "industrial workshop of the world", is still today a country with a strong economy, ranking 6th in the world and 2nd in Europe (after Germany) in terms of GDP ($3.5 trillion in 2024). Great Britain, which is one of the main members of the influential organizations (such as NATO, Council of Europe, UN Security Council, G7) also has a powerful military and political potential. So, UK is one of the 9 countries with nuclear weapons in the world and ranks first in Europe in terms of annual military spending. Establishing and developing successful mutual relations with such a state is undoubtedly vitally important for Azerbaijan. Among the factors determining the importance of our country's friendly relations with Great Britain, forming a positive opinion about Azerbaijan by properly introducing it to the world community, opening favorable opportunities for the integration of our country into prestigious international organizations, advanced structures of Europe, the provision of peace and security in the South Caucasus and the Caspian region, the supporting of the traditions of democracy and parliamentarism, the development of Azerbaijan's rich hydrocarbon resources can be listed.

In the article, the study of the contemporary Azerbaijani-British relations for the first time in the context of domestic historiography is not only a scientific innovation, but it is also extremely important from the point of view of more precisely following the historical development dynamics of the relations between the two countries and determining its current and future prospects.

Keywords: Azerbaijan Republic, Great Britain, foreign policy, international relations, oil, domestic historiography.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 19 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçi: AMEA-nın həqiqi üzvü Yaqub Mahmudov.